**AZƏRBAYCAN RESPUBLIKASI**

*Əlyazması hüququnda*

# MİRZƏ MƏHƏMMƏD AXUNDOVUN HƏYAT VƏ YARADICILIQ YOLU

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elmi sahəsi: Filologiya

İddiaçı: **Aygün Mədət qızı Əhmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin "Azərbaycan və dünya
ədəbiyyatı kafedrası"nda yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Alxan Bayram oğlu Məmmədov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Rafiq Yusif oğlu Əliyev**

filologiya elmləri doktoru, professor
**Yeganə Nəhmətulla qızı İsmayılova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Əzizağa Bayram oğlu Nəcəfov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 – Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru
**İlhamə Mürsəl qızı Gültekin**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyatı tarixində XIX əsrin ikinci yarısı və XX sərin əvvəlləri özünün məzmun və mündəricə zənginliyinə, yenilik ruhuna görə xüsusi mərhələ təşkil etməsi ilə həm də dövrün qabaqcıl görüşlü ədəbi şəxsiyyətlərinə, ictimai-mədəni xadimlərinə borcludur. Belə şəxsiyyətlərdən biri də həmin dövrdə ədəbiyyat tarixi və teatr tənqidi sahəsində xüsusi fəallıq göstərən vətənpərvər ədib, maarif xadimi, şair-publisist və bədii tərcümələr müəllifi olan Mirzə Məhəmməd Axundovdur. O, özünün qızğın fəaliyyəti ilə seçilir. Eyni zamanda bu fəaliyyət müxtəlif məzmunlu və istiqamətli olması ilə də diqqəti cəlb edir. Belə ki, M.M.Axundov gənc yaşlarından Gəncə şəhər kişi gimnaziyasında "Ana dili" və "Şəriət" fənnləri üzrə müəllim işləmişdir. O, ölkədə geniş vüsət alan maarifçilik hərəkatının əsas ideya-estetik prinsiplərini mənimsəmiş həmin hərəkatın tələblərinə uyğun olaraq 1897 və 1908-ci illərdə yeni təlim-tədris metodlarına cavab verən dəsrliklər yazıb çap etdirmişdir. Gənc pedaqoqun həmin dərslikləri Azərbaycan məktəblərində uğurla sınaqdan çıxmışdır.

M.M.Axundov XX əsrin əvvələrində öz fəaliyyət dairəsini daha da genişləndirmiş, qələmini bədii yaradıcılıq sahəsində də sınamışdır. Ədibin yazdığı pyeslər ("Analıq", "Hər nə əkərsən onu da biçərsən", "Məhəbbətsizlik nəticəsi, yaxud ata və ananın təqsiri", "Türk oğulları, yaxud dil yağıları", "Səd Vəqas, yaxud Fəthi-Qüdsiyyə" və s.), Namiq Kamal, Vilyam Şekspir və b. dramaturqlardan tərcümə etdiyi əsərlər Gəncə və Bakı ilə yanaşı, ölkənin digər mədəni mərkəzlərində də tamaşaya qoyulmuşdur. O, Nizami Gəncəvi şəxsiyyətinin və bədii irsinin təbliğində, böyük şairin qəbirüstü günbəzinin abadlaşdırılması işində təşəbbüskar və təşkilatçı kimi 1909-1910-cu illərdə təqdirəlayiq vətəndaşlıq işi görmüşdür. Ədibin "Şeyx Nizami" (Gəncə, 1909) kitabçası bu mövzuda yazıb çap etdirdiyi məktub və məqalələri həmin işlərin tarixi faktları kimi də qiymətlidir.

Mirzə Məhəmməd o dövrdə baş verən hadisələr, həyata keçirilən mədəni-maarifçilik tədbirləri və digər məsələlər barəsində "İrşad", "Molla Nəsrəddin", "Tazə həyat" və başqa mətbuat

orqanlarının səhfələrində bir-birindən maraqlı və məzmunlu məqalə, felyeton, şeirlərlə çıxış etmişdir. Onun hər bir qələm məhsulu dövrün qabaqcıl fikirli ədəbi ictimaiyyəti tərəfindən maraqla qarşılanmış, ictimaiyyət içərisində nəzərəçarpacaq müsbət təsir buraxmışdır. Bütün bu vətəndaş çıxışları M.M.Axundovu həm də siyasi fəaliyyət meydanına – Erməni Daşnaq Partiyasının dağıdıcı işlərinin qarşısını alıb, yerli müsəlman əhalini ermənilərin törətdikləri qırğınlardan xilas etmək məqsədi ilə Ə.Ağayev, N.Usubbəyli və b. tərəfindən yaradılan "Difai" təşkilatının yaradıcıları sırasına gətirib çıxarmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin parlament üzvləri sırasına da daxil olmuşdur. Bütün bu və digər cəhətlər göstərir ki, XIX əsrin axırları, XX əsrin əvvəlləri Azərbaycan ictimai, mədəni , ədəbi-bədii mənzərəsinin daha dərindən və əhatəli şəkildə mənimsənilərək dərk edilməsi naminə Mirzə Məhəmməd Axundovun həyat, fəaliyyət və ədəbi-bədii yaradıcılıq yolunun hərtərəfli araşdırılması məsələsi milli ədəbiyyatşünaslığın qarşısında aktual vəzifələrdən biri kimi durmaqdadır.

Araşdırmalardan məlum olur ki, elmi ədəbiyyatda da göstərildiyi kimi Mirzə Məhəmməd Axundovun qızğın ictimai-mədəni və ədəbi fəaliyyəti haqda hələ XX əsrin əvvələrindən dövrün ayrı-ayrı mətbu orqanlarında, ədibin öz kitablarının ön səhifələrində və s. onun hər hansı mədəni tədbirdə iştirakı, orjinal və tərcümə əsərlərinin çapa hazır olması və ya çapdan çıxması haqda müəyyən məlumatlar verilmişdir. Həmin məlumatlar Mirzə Məhəmmədin ictimai-mədəni və ədəbi fəaliyyətinin öz sağlığında da ictimaiyyətin daim diqqət mərkəzində olması haqda təəssürat yaradır.

M.M.Axundovun elmi yaradıcılığının müəyyən bir sahəsi – teatra dair baxışları haqda professor Abbas Zamanovun "Azərbaycan dilində teatr haqqında ilk kitab"[1] başlıqlı məqaləsində, akademik Kamal Talıbzadənin "XX əsr Azərbaycan tənqidi" (1905-1917-ci illər)"[2] adlı monoqrafiyasında və f.e.n. dosent Nəzakət Qafqazlının

---

[1] Zamanov, A. Azərbaycan dilində teatr haqqında ilk kitab / A.Zamanov. - Azərbaycan incəsənəti.-Azərbaycan SSR EA nəşriyyatı,-c.12.-1965.-202 s.

[2] Talıbzadə, K. XX əsr Azərbaycan tənqidi (1905-1917-ci illər) // - Bakı: Azərbaycan SSR EA, -1966, – s.283-284.

"Teatr haqqında ilk kitab" [3] başlıqlı məqalələrində ədibin "Teatro nədir?" (Gəncə, 1909) kitabının elmi-tarixi əhəmiyyəti diqqətə çatdırılmışdır. Qeyd edək ki, A.Zamanov "Teatro nədir?" kitabının tam mətnini ona əlavə etdiyi lüğətlə birgə adını çəkdiyimiz məqaləsinə, ərəb əlifbasından çevirib, əlavə olaraq çap etdirmişdir.[4] Professor Alxan Bayramoğlunun "M.M.Axundov Teatr haqqında" (bax: "Qobustan" jur.2008, №4, s.43-46) başlıqlı məqaləsində "Teatro nədir?" (Gəncə, 1909) kitabının elmi-tarixi əhəmiyyəti göstərilməklə, M.M.Axundovun teatra dair baxışları şərh edilmişdir.

M.M.Axundovun "Şeyx Nizami" (Gəncə, 1909) kitabçası da elmi ictimaiyyətin diqqət mərkəzində olmuşdur; mərhum professor Xeyrulla Məmmədov ədibin həmin əsərini ərəb əlifbasından kirilə çevirərək "Ana sözü" jurnalında[5] çap etdirmiş və əsərin əvvəlində "Mirzə Məhəmməd Axundov. Tərcümeyi halı" adlı yığcam bioqrafik məqalə əlavə etmişdir[6]. M.M.Axundovun "Şeyx Nizami" əsərini fil.ü.f.doktoru Təhminə Bədəlova yenidən ərəb əlifbasından latına çevirərək, ona "Tərtibçidən" başlıqlı ön söz yazmış, geniş şərhlər və lüğətlə ayrıca kitab şəklində Bakıda "Elm və Təhsil" nəşriyyatında çap etdirmişdir. M.M.Axundovun Şeyx Nizami şəxsiyyətinə və sənətinə sevgisi və onun "Şeyx Nizami" kitabının elmi-mədəni dəyəri prof.A.Bayramoğlunun "Nizami Gəncəvi irsinə məhəbbətlə"[7] və bu sətirlərin müəllifi Aygün Əhmədovanın "Mirzə Məhəmməd Axundov və Nizami Gəncəvi"[8] məqalələrində də araşdırma obyekti seçilmişdir. Əgər prof. A.Bayramoğlunun məqaləsində daha çox N.Gəncəvinin qəbrüstü künbəzinin abadlaşdırılması istiqamətində

---

[3] Qafqazlı, N. Teatr haqqında // Ədəbiyyat və incəsənət. – 1974, 25 may.

[4] Zamanov, A. Azərbaycan dilində teatr haqqında ilk kitab.- Azərbaycan incəsənəti.-Azərbaycan SSREA nəşriyyatı,- c.11.-1965,- s. 208-210.

[5] Məmmədov, X. Mirzə Məhəmməd Axundov (Tərcümeyi-halı) Şeyx Nizami // Ana sözü, – 1992, – s.28-32.

[6] Məmmədov, X. Mirzə Məhəmməd Axundov (Tərcümeyi-halı) Şeyx Nizami // Ana sözü, – 1992, s. 27.

[7] Bayramoğlu, A. Nizami Gəncəvi irsinə məhəbbətlə. Nizamişünaslıq .// Gəncə: AMEA Gəncə filialının elmi xəbərləri,-2012,-s.54-56.

[8] Əhmədova, A. Mirzə Məhəmməd Axundov və Nizami Gəncəvi // Çağımızdan görünən orta əsrlər. R.Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi Konfrans,- Elm,- 2014, - s. 569-572 .

M.M.Axundovun gördüyü işlərdən danışılırsa, A.Əhmədovanın məqaləsində ədibin "Şeyx Nizami" kitabının məziyyətlərindən söhbət açılır.

M.M.Axundovun dram yaradıcılığı da mütəxəssislərin diqqətini cəlb etmişdir; professor Mir Cəlal Paşayev hələ 1946-cı ildə yazıb müdafiə etdiyi "Azərbaycanda ədəbi məktəblər (1905-1917)" adlı doktorluq dissertasiyasının M.M.Axundova həsr etdiyi səhifələrində daha çox ədibin səhnə əsərlərindən bəhs etmişdir. M.M.Axundovun səhnə əsərlərinin əksəriyyətini fil.ü.f.doktoru, dosent Rauf Sadıxov əlyazmasından müasir əlifbaya çevirib tərtib edərək, "Dram əsərləri" adı altında kitab şəklində çap etdirmişdir. R.Sadıxovun kitaba yazdığı "Mirzə Məhəmməd Axundov" adlı ön sözdə[9] təbii olaraq ədibin kitaba daxil edilən səhnə əsərlərindən və tərcüməçilik fəaliyyətindən bəhs edilmişdir. R.Sadıxov "Mirzə Məhəmməd Axundovun (Axundzadənin) "Vətən, yaxud Silistrə" dramının tərcüməsi ətrafında gedən mübahisəyə dair"[10] adlı məqaləsində N.Kamalın həmin əsərinin Mirzə Məhəmməd tərəfindən tərcümə edilməsi və tərcümə ilə bağlı M.S.Axundovun o dövr mətbuatında – "Tazə həyat" qəzetində yazdığı rəylərdən danışılmışdır.

Araşdırmalar göstərir ki, mütəxəssislərin M.M.Axundov irsinə marağı davam etməkdədir. Fikrimizə misal olaraq professor Alxan Bayramoğlunun "M.M.Axundov irsinin tədqiqi və nəşri tarixinə dair"[11] və "M.M.Axundovun pyesləri"[12] adlı məqalələrini göstərə bilərik. Həmin tədqiqatlarda Mirzə Məhəmmədin ümumən əsərlərinin tədqiqi və nəşri məsələlərindən danışılmaqla yanaşı, demək olar ki, ədibin əldə olan, hətta "Dram əsərləri"nə (Bakı, 2003)

---

[9] Məhəmməd, M. Dram əsərləri. / /Transliterasiya, tərt. edən və ön sözün müəl. R.Sadıxo;. / Red. A. Kəngərli.- Bakı: Mütərcim,- 2003.- 212 s.

[10] Sadıxov, R. Mirzə Məhəmməd Axundovun (Axundzadənin) "Vətən, yaxud Silistrə" dramının tərcüməsi ətrafında gedən mübahisəyə dair // - Bakı: Ekologiya, fəlsəfə, mədəniyyət. Elmi məqalələr məcmuəsi, - 2004.- s.80-83.

[11] Bayramoğlu, A. M.M.Axundov irsinin tədqiqi və nəşri tarixinə dair // - Bakı AMEA-nın Xəbərləri (Humanitar elmlər seriyası), -2008, - s.19-29.

[12] Bayramoğlu, A.M. M.Axundovun pyesləri. // Ədəbiyyat Məcmuəsi, - Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, -2009. C.22, - s.91-103.

daxil edilməyən səhnə əsərləri ətraflı təhlil edilmiş, onların əlyazma və çap variantları haqqında məlumat verilmişdir. Daha dəqiq desək, "M.M.Axundovun pyesləri" məqaləsində ədibin "Dram əsərləri"nə daxil olan digər səhnə əsərlərindən başqa "Yaşına-yaşına, çıxdın ocaq başına" və "Türk oğulları, ya ki dil yağları"[13] adlı bir pərdəli səhnə əsəri də təhlil edilmişdir.[14]

M.M.Axundovun "Difai" təşkilatının fəal üzvlərindən biri olduğu və bu fəaliyyətinə görə həbsə alınıb sürgün edildiyi də məlumdur. Həmin məsələ ilə bağlı ayrı-ayrı mənbələrlə yanaşı professorlar Cəlal Qasımovun "Maarif fədaisi"[15] məqaləsində, Vilayət Quliyevin "Ağaoğlular"[16], tədqiqatçı Hüseyn Baykaranın "Azərbaycan İstiqlal mücadiləsi tarixi"[17] kitablarında da məlumat verilmişdir.

Bu qeydlərdən də aydın olur ki, elmi mənbələrdə M.M.Axundovun bədii irsi və həyatının ayrı-ayrı məqamları haqda müəyyən fikr və mülahizələr söylənilib, təhlillər aparılsa da (Nazim Rza İsrafiloğlunun "Mirzə Məhəmməd Axundzadə"[18] adlı kitabı ədibin həyat və yaradıcılığına həsr edilmiş bədii-publisistik bir əsər kimi dəyərlidir), onun həyat və yaradıcılıq yolu indiyədək sistemli elmi-nəzəri araşdırma obyektinə çevrilməmişdir. Milli ədəbiyyatşünaslığın qarşısında duran həmin vəzifə bu dissertasiyada yerinə yetirilməyə çalışılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** M.M.Axundovun şeir, məqalə, felyetonları, pyesləri, elmi əsəsrləri, həyatına dair müxtəlif xarakterli materiallardan və mövzu ilə bağlı elmi nəzəri tədqiqatlardan ibarətdir. Bundan başqa dissertasiyada milli

---

[13] Bayramoğlu, A.M. M.Axundovun naməlum bir əsəri // Ədəbiyyat. -2008. 29 fevral

[14] Bayramoğlu, A.M. M.Axundovun pyesləri. // Ədəbiyyat Məcmuəsi, -Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, -2009. C.22 cild. - s.103-107.

[15] Qasımov, C. Maarif fədaisi // Sərhəd, - 1996. 19 iyul.

[16] Quliyev, V. Ağaoğlular / V.Quliyev / red. A.Rüstəmli. - Bakı: Ozan, - 1997. - 235 s.

[17] Baykara, H. Azərbaycan İstiqlal mücadiləsi tarixi / H.Baykara. - Bakı: Azərnəşr, - 1992. - 230 s.

[18] İsrafiloğlu, N. R. Mirzə Məhəmməd Axundzadə / N.İsrafiloğlu, elmi red. Ş. Hümmətli. - Bakı: Mütərcim, - 2006. - 308 s.

ədəbiyyatşünaslığın uğurlarını özündə əks etdirən ayrı-ayrı tədqiqat əsərlərindən də bəhrələnilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulan məqsəd M.M.Axundovun həyat və yaradıcılıq yolunu araşdırmaqla Azərbaycan ədəbiyyatı tarixində onun tutduğu mövqeyi müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazım gəlir:

- XIX əsrin axırları, XX əsrin əvvələri Azərbaycan ictimai-mədəni və ədəbi düşüncəsində formalaşıb inkişaf edən yenilikləri müəyyənləşdirməyə çalışmaq;
- M.M.Axundovun doğulub təhsil aldığı mikro (ailə) və makro mühitin (Gəncə və ölkə həyatının) özəlliklərini diqqətə çatdırmaq;
- M.M.Axundovun vətənpərvər və istedadlı bir gənc kimi əhatəsində olduğu ictimai-mədəni mühitin dövrünə görə qabaqcıl, mütərrəqi keyfiyyətlərini mənimsəyə bildiyini göstərmək;
- Maarifçi ədəbi-mədəni hərəkatın tərkib hissəsi kimi cədidizmin həmin hərəkatda oynadığı əhəmiyyətli rola aydınlıq gətirmək;
- Maarifçi ədəbi hərəkatın, o cümlədən M.F.Axundzadə və mollanəsrəddinçilərin yaradıcılıq ənənələrinin M.M.Axundov tərəfindən davam və inkişaf etdirildiyini əsalandırmaq;
- Bunun üçün ədibin teatr və dramaturgiya sahəsində yaradıcılıq fəaliyyətini, ictimai-siyasi ruhlu məqalə və felyetonlarını, realist şeir yaradıcılığını, elmi və publisitik fəaliyyətini geniş təhlil etmək;
- Ədibin siyasi, ictimai-mədəni fəaliyyətinə də aydınlıq gətirmək.

**Tədqiqatın metodları.** Dünya və Azərbaycan ədəbiyyatşünaslığının, ümumən humanitar elmi düşüncənin əldə etdiyi təcrübə və qazandığı uğurların sistemli məcmusu dissertasiyanın elmi nəzəri əsasını, milli tarixi və müqayisəli təhlil üsulu tədqiqatın metodoloji bazasını təşkil edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Mirzə Məhəmməd Axundov qızğın ictimai-mədəni və ədəbi fəaliyyətlə məşğul olmuşdur;
- Ədib “Difai” təşkilatının fəal üzvlərindən biri olmuşdur. Bu fəaliyyətinə görə həbsə alınıb sürgün edilmişdir;

- M.M.Axundovun yaradıcılığının bir hissəsi onun teatra baxışlarıdır;
- Görkəmli şair Şeyx Nizamiyə dərin ehtiram bəsləmiş və onun ədibə həsr etdiyi "Şeyx Nizami" əsəri elmi ictimaiyyətin dərin marağına səbəb olmuşdur;
- M.M.Axundovun zəngin dram yaradıcılığı olmuşdur Ədibin yaradıcılığının bu sahəsi mütəxəssislərin diqqətinin cəlb etmişdir. Prof.M.C.Paşayev, dosent Rauf Sadıxov və b. bu haqda araşdırmaları diqqəti cəlb edir;
- Mütəxəssislərin M.M.Axundov irsinə marağı bu gün də davam edir. Professor Alxan Bayramoğlunun məqalələri bu cəhətdən çox dəyərlidir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Mirzə Məhəmməd Axundovun həyat və fəaliyyət yolu bütövlükdə və dövrün sosial-mədəni, ədəbi-bədii prosesləri ilə vəhdətdə sistemli şəkildə ilk dəfə olaraq araşdırılmışdır. M.M.Axundovun dramaturgiyasının və ədəbi yaradıcılıq yolunun, elmi pedaqoji fəaliyyət istiqamətinin maarifçi-realist dünya görüşün, cədidizmin tərkib hissəsi olduğu qənaəti ilk dəfə əsaslandırılmışdır.

- Gəncədə və ölkə miqyasında baş verən hadisə və proseslərin M.M.Axundovun şeir yaradıcılığı ilə yanaşı məqalə və felyetonlarında da fəal vətəndaşlıq mövqeyindən işıqlandırılması ilk dəfə təhlilə cəlb edilmişdir;
- Ədibin folklorşünaslıq, teatr və dramaturji fəaliyyətinə dair mövcud elmi təsəvvürlər sistemə salınaraq inkişaf etdirilmişdir. M.M.Axundovun siyasi fəaliyyətinin sosial-mənəvi səbəb və miqyasına xeyli aydınlıq gətirilmişdir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.**Tədqiqatın nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında, ali və orta məktəb dərsliklərinin hazırlanmasında, xüsusi kurslarda və s. istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu Gəncə Dövlət Universiteti Elmi Şurası tərəfindən müəyyənləşdirilmiş və həmin universitetin "Azərbaycan və dünya ədəbiyyatı kafedrası"nda yerinə yetirilmişdir. Tədqiqatın əsas elmi

tezisləri dissretantın yerli və xarici ölkə nəşrlərində çap olunan məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Gəncə Dövlət Universitetinin “Azərbaycan və dünya ədəbiyyatı” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və işin həcmi.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya giriş (15 556 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf – 57 363 şərti işarə, ikinci fəsil iki paraqraf – 57 418 şərti işarə, üçüncü fəsil iki paraqraf – 96 629 şərti işarə), nəticə (3 545 şərti işarə), istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın ümumi həcmi 230 511 şərti işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun tədqiq tarixi araşdırılır, işin obyekti və predmeti, məqsəd və vəzifələri, qarşıya qoyulan məsələlər müəyyənləşdirilir.

Tədqiqatın **“Azərbaycanda üsuli cədid məktəbləri və Mirzə Məhəmməd Axundov”** adlı birinci fəslinin ilk paraqrafı "Ədibin dövrü, ailə mühiti" adlanır. Burada Mirzə Məhəmməd Axundovun yaşadığı ədəbi dövr və ailə mühiti araşdırılır. Cənubi Qafqaz Rusiya tərəfindən işğal edildikdən sonra Azərbaycan ərazisində olan xanlıqlar ləğv olundu. Onların bəzilərinin mülkləri və xanlıq torpaqları formal olaraq öz ixtiyarlarında saxlanmışdı. Ancaq ölkədə tamamilə yeni idarə üsulu tətbiq edildi. Bununla əlaqədar olaraq üç inzibati ərazi bölgüsü yaradıldı. Həmin inzibati bölgülərin mərkəzləri Gəncə, Bakı və İrəvan şəhərləri olmaqla, Gəncə quberniyası, Bakı quberniyası və İrəvan quberniyası adlandırıldı. Bu quberniyalar inzibati-idarə mərkəzi Tiflis şəhərində yerləşən canişinliyə tabe edildi. Beləliklə, çar Rusiyası XIX əsrdə işğal etdiyi ərazilərdə də öz idarə üsulunu tətbiq etməyə, onun maddi və mənəvi sərvətlərindən bəhrələnmək üçün orada islahatlar aparmağa, yeni layihələr həyata keçirməyə başladı. Çünki yeni işğal edilmiş

ərazilərin əhalisinin Rusiya qanunları və maraqlarına uyğun idarə-üsuluna alışdırılması lazım idi.

Ümumiyyətlə, XIX əsrin ikinci yarısında başlanan maarifçilik ictimai-ədəbi hərəkatının əsasında xalqın elm yolu ilə maariflƏndirilməsi və həyatın bütün sahələrində onun uğur qazanmasının təmin edilməsi dururdu.

Dövrün bütün bu mədəni-mənəvi, ictimai-ədəbi narahatlıq və axtarışları Gəncə mühitindən də yan keçə bilməzdi və keçmirdi də.

Gəncənin təbiəti kimi dayanıqlı, əzəmətli və kifayət qədər potensial yaradıcı keyfiyyətlərə malik ictimai-mədəni, sosial-siyasi mühiti imperiya hakimiyyəti şəraitində belə öz simasını qoruyub saxlamaqla yanaşı, çarizmin şəxsi maraqları çərçivəsində həyata keçirdiyi tədbirlərdən də zamanın tələbinə uyğun olaraq bəhrələnməyi bacarırdı. Yəni dövrünə görə qabaqcıl təhsil ocaqlarından, mədəni-maarif müəssisələrindən xalqın mənəvi-əxlaqi düşüncəsinin milli maraqlara uyğun şəkildə istifadə edilirdi. Gəncədə açılan kişi gimnaziyasının əsl mədəni tərəqqi obyektinə çevrilməsində Pişnamazzadə, Nəsib bəy Yusifbəyli, Mirzə Kərim Axundov və başqa ziyalılarla yanaşı, Ə.Ağaoğlu, N.Nərimanov kimi ictimai xadimlər də xüsusi fəallıq göstərirdilər. XIX əsrin sonları, XX əsrin əvvəllərində Gəncədə təşkil edilən xeyriyyə cəmiyyəti, teatr, kitabxana və s. mədəni-maarif ocaqları milli mədəni və siyasi, ədəbi şüurun inkişafında da xüsusi rol oynadı.

Mirzə Məhəmməd Axundov tarixi mədəni proseslərin milli istiqlala doğru istiqamət aldığı belə keşməkeşli məsul dövrdə Gəncədə dünyaya göz açdı.

Onun yaşayıb yaratdığı illər Azərbaycan ictimai ədəbi və mədəni həyatının ən məhsuldar dövrlərindən biridir. Belə ki, XIX əsrin son rübü və XX əsrin əvvəlki onillikləri milli özünüdərk və müstəqillik məfkurəsinin formalaşması, həyata keçməsi, şanlı mübarizələrlə dolu bir mərhələdir. Bütün bunlar isə xalqın qabaqcıl düşüncəli, vətənpərvər ruhlu ziyalı nümayəndələrinin ardıcıl və məqsədyönlü səyi nəticəsində əmələ gəlmişdi. Daha doğrusu, yuxarıda göstərdiyimiz kimi, ölkədə maarifçilik hərəkatı, M.F.Axundzadə ideyalarının getdikcə ədəbi mədəni fikrə hakim kəsilməsi və sairlə yanaşı, üsuli-cədid məktəblərinin açılması, teatr,

mədəni maarifçilik meyllərinin güclənməsi ilə də müşayiət edilirdi. Bütün bu ideyalar tarixi inzibati və mədəni mərkəz statusunu qoruyub saxlayan Gəncədə (o zaman Yelezavetpol adlanırdı) də özünün kifayət qədər ciddi və vətənpərvər tərəfdarını tapmışdır. Bunlardan biri də Yelizavetpol klassik kişi gimnaziyasının "Şəriət" və "Ana dili" müəllimi Mirzə Kərim Mirzə Məhəmməd Əli Qazi oğlu Axundov idi. O, Gəncə ictimai-mədəni və pedoqoji mühitində kifayət qədər böyük nüfuza və hörmətə layiq bir ziyalı olmuşdur. Mirzə Kərim Gəncə kişi gimnaziyasında 1862-ci ilin fevral ayından etibarən çalışmışdır. Bu müddətdə işinin öhdəsindən bacarıqla gəldiyinə görə 1868-ci ildən həm də quberniya katibi rütbəsində, 1870-ci ildən etibarən isə kollec katibi rütbəsi ilə çalışmışdır. Mirzə Kərim fəaliyyəti ərzində özünü intizamlı, işgüzar və savadlı bir müəllim kimi tanıtmış, ona görə də tez-tez yeni vəzifələrə, məsələn, titulyar müşavir, kollec asessoru və s. təyin olunmuşdur. O, ali dini təhsilini Xorasanda almış, bu zaman ərəb, fars dillərini, islam tarixini mükəmməl öyrənmişdi. Övladlarını, xüsusən oğlu Məhəmmədi də savadlı, əsl ziyalı kimi görmək istədiyi üçün onun təlim-tərbiyəsinə xüsusi diqqət yetirirdi. Söz yox ki, Mirzə Məhəmmədin ərəb, fars, rus və türk dillərini, onların qrammatikasını mükəmməl öyrənməsində atası Mirzə Kərimin də bu qayğı və diqqətinin böyük rolu olmuşdur.

Azərbaycan ictimai ədəbi fikri tarixində diqqətəlayiq xidmətləri olan, şair, publisist, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, pedaqoq, folklor toplayıcısı, siyasi xadim kimi tanınan Mirzə Məhəmməd Mirzə Kərim oğlu Axundov 1875-ci il avqust ayının 9-da Gəncədə anadan olmuşdur. O, ilk təhsilini atası Mirzə Kərimdən və dövrünün tanınmış müdərrislərindən olan Mirzə Xəlil Şeyxzamanovdan almışdır. Mədrəsəni bitirdikdən sonra o, Gəncə klassik kişi gimnaziyasına daxil olmuşdur. Burada olan sağlam pedoqoji mühitlə yanaşı atası Mirzə Kərimin də həmin tədris müəssisəsində çalışması Məhəmmədin xüsusi qayğı ilə əhatə olunmasında xeyli əhəmiyyətli rol oynamışdır. Bütün bunlarla yanaşı, Məhəmməd özü də çalışqan və zəkalı, intizamlı bir şagird kimi diqqəti cəlb edirdi. Bu haqda elmi ədəbiyyatda oxuyuruq:

*“Məhəmməd getdikcə yaşıdları arasında fərqlənməyə başladı. Mütaliə dairəsi geniş olduğundan, onun maraq dairəsi də yaşıdlarından xeyli geniş və müxtəlif idi. O, araşdırmalara meyl göstərir, rus, Avropa, habelə Şərq o cümlədən türk müəlliflərinin əsərlərini oxumaqdan yorulmur, əksinə, dünyagörüşünü genişləndirməkdən və zənginləşdirməkdən hədsiz dərəcədə zövq alırdı.Zira o bu əsərləri orjinaldan oxumaq imkanına malik idi.Həm də yalnız mütaliə etməklə kifayətlənmir, onları yaxın gələcəkdə azəri türkcəsinə çevirmək barədə də düşünürdü. Çünki dünya ədəbiyyatının Azərbaycan cəmiyyətində geniş yayılması son dərəcə vacib idi və bunun üçün keyfiyyətli tərcüməyə böyük ehtiyac duyulurdu. Həm də bu elə bir dövr idi ki, bütün Azərbaycan kimi, Gəncə də ən müxtəlif sahələrdə böyük canlanma mərhələsinə qədəm qoyurdu. Xüsusilə də milli oyanışda.”*

Doğurdan da, XIX əsrin axırlarında Gəncədə ictimai-ədəbi və mədəni-maarifçilik sahəsində xalq arasındakı böyük oyanışın gənc nəslin təlim-tərbiyəsinə xüsusi diqqət yetirilməsində də özünü göstərməsi diqqəti cəlb edirdi.

**“İlk yaradıcılıq addımları”** adlı ikinci paraqrafda şairin qələmə aldığı ilk əsərlər tədqiqata cəlb edilir. Məlum olduğu kimi, 1905-ci il rus inqilabından sonra bütün ölkələrdə olduğu kimi, Qafqazda da ictimai şüurda bir canlanma, oyanış yaranmışdır. Həmin canlanma mədəni-maarif aləmini də əhatə etmişdi. Bütün bunların nəticəsi olaraq, Bakıda “Nicat” maarif cəmiyyətinin təşəbbüsü ilə Azərbaycan müəllimlərinin qurultayı çağırılmış və təlim-tədris məsələlərinə dair qarşıda duran məsələləri müzakirə edib aydın fəaliyyət proqramı hazırlanması qərara alınmışdı.

Azərbaycan müəllimlərinin qurultaylarında müzakirəyə qoyulan məsələlərin mahiyyətində də siyasi, istiqlal ruhlu ideyaların durması bu baxımdan təbii idi; müəllimlər milli təhsili dövrə, zamanın tələbinə uyğunlaşdırmaqla, xalqın başından təriqətçilik fikirlərini çıxarmaq cəhdləri edir, milli birliyə, tərəqqi və inkişafa nail olmağa çalışırdılar. Bunun üçün həm də dini birliyə nail olmaq lazım idi. Bu məqsədlə çalışmaq üçün məktəblərdə dərslərin, gənc nəslin mənsub olduqları təriqətə deyil, ancaq ümumislam düşüncəsinə əsaslanmaqla keçilməsinə, dərs proqramlarının və

dərsliklərin də bu istiqamətdə yazılıb tətbiq edilməsinə nail olmaq tələb olunurdu.

Mirzə Məhəmməd tədris prosesində şagirdlərin bilik və bacarıqlara yüksək səviyyədə yiyələnmələrinə nail olmaq üçün, haqlı olaraq, məsləhət görürdü ki, birinci növbədə ərəb əlifbasının qəlizliyindən irəli gələn çətinlikləri Azərbaycan dilində şagirdlərə öyrətmək, yalnız bundan sonra onları kitab üzərində işləməyə cəlb etmək lazımdır. O, şagirdlərin hər bir mətləbi yaxşı mənimsəmələrinə, aydın başa düşmələrinə nail olmağın yolunu doğru olaraq, tədris prosesində rast gəlinən çətin sözlərin müəllim tərəfindən izah edilməsində görürdü.

Mirzə Məhəmmədə görə gənc nəslin doğru, düzgün təlim və tərbiyə ilə təmin edilmələri təkcə onun müəllim və pedaqoqluq borcu yox, həm də vətəndaş məsuliyyətidir. Çünki bu gün qoyulan bünövrə daşları sabah tikiləcək istiqlaliyyət binasının, işıqlı gələcək amalının möhkəmliyinə, uzunömürlülüyünə təminat verməlidir. Hər bir şagirdin,vətən övladının gələcəyi qarşısında daşınan məsuliyyət deməkdir. Həmin məsuliyyəti isə dövr, zaman tələb edirdi. Daha dəqiq desək XIX əsrin ortalarından başlanan maarifçilik hərəkatı getdikcə onun tərkib hissələrindən olan cəddizmlə – yeni tipli məktəblərin şəbəkəsinin genişləndirilməsi, onlara uyğun milli ruh və məzmunlu dərslik, proqram, mətbu orqan və sairin hazırlanıb nəşrinə nail olunması təşəbbüsləri ilə yeni ictimai-mədəni məzmun kəsb etməyə başladı. XIX əsrin sonları və XX əsrin əvvəllərində bu cür təşəbbüslər ancaq mədəni-maarifçilik çağrıları ilə kifayətlənməyib, həm də sosial-siyasi məzmun qazanmağa başlayırdı.

**“Mirzə Məhəmməd Axundovun bədii yaradıcılığı”** adlı ikinci fəsil "M.M.Axundov Mollanəsrəddinçi şair kimi" və “Dramaturqun pyeslərində ailə-məişət mövzusu" paraqraflarına bölünür. Qeyd olunur ki, əsrin əvvəllərində ictimai həyatda baş verən yeniləşmə ruhu özünü birinci növbədə bədii ədəbiyyatda hiss etdirirdi. Mətbuat və teatrın yaranması Azərbaycan ədəbiyyatında maarifçi ideayaların meydana çıxmasına, ictimai həyatda baş verən tərəqqi və inkişafın daha da sürətlənməsinə səbəb olurdu. Maarif və mədəniyyət xadimləri fəaliyyətlərinin bütün mərhələlərində və

sahələrində əməli pedaqoji, publisistik, səhnə fəaliyyətində, dramaturgiya yaradıcılığında və sairədə bütün diqqəti xalqın maarif və mədəni səviyyəsinin yüksəldilməsinə yönəltmişdilər. Onları fikrincə, xalq maarif və yüksək mədəniyyətə nail olmayınca tərəqqi edə bilməz. Bunun üçün yeni tipli məktəblər, proqram və dərsliklər olmalı, cəmiyyətin hər bir üzvü, xüsusən qadınlar yüksək səviyyədə savadlanmalıdırlar. Çünki, savadsız və hüquqsuz qadının doğub, tərbiyə etdiyi uşaqlar gələcəkdə cəmiyyətə yararlı vətəndaş kimi yetişə bilməzlər. Odur ki, maarifpərvərlər həm əməli fəaliyyətlərində, həm də publisistik və bədii yaradıcılıqlarında qadınlarımızın azadlıqlarına, yüksək mədəni səviyyəyə malik olmalarına xüsusi fikir verirdilər. Çünki onların möhkəm qənaətlərinə görə, bu cür ananın övladı cəmiyyətin işıqlı gələcəyini təmin edə bilər.

Gəncədə müəllim işləyən, elmi, publisistik və dramaturji fəaliyyəti ilə ictimai-mədəni həyatda iştirak edən Mirzə Məhəmməd Axundov digər sahələrdə olduğu kimi dramaturji fəaliyyətində də qadınlarımızın azadlığı, mədəni və elmi səviyyələrinin yüksəldilməsi, onların cəmiyyət üçün qabiliyyətli övladlar yetişdirəbilmə qabiliyyətinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir, bu mövzuda publisistik məqalələrlə yanaşı, dramaturji əsərlər də yazırdı.

Gəncədə müəllim işləyən, elmi, publisistik və dramaturji fəaliyyəti ilə ictimai-mədəni həyatda iştirak edən Mirzə Məhəmməd Axundov digər sahələrdə olduğu kimi dramaturji fəaliyyətində də qadınlarımızın azadlığı, mədəni və elmi səviyyələrinin yüksəldilməsi, onların cəmiyyət üçün qabiliyyətli övladlar yetişdirəbilmə qabiliyyətinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir, bu mövzuda publisistik məqalələrlə yanaşı dramaturji əsərlər də yazırdı.

M.M.Axundov dram əsərləri yazmaqla bərabər, Gəncədə teatr truppası yaradaraq, həmin əsərlərdə qoyulan məsələlərin, irəli sürülən ideyaların xalqa çatdırılması qayğısına da qalmışdır. O, həmin truppanın təşkili ilə yanaşı aktyor oyununda da fəal iştirak

edərək bir sıra rollarda oynamışdır.[19]

M.M. Axundovun qadınlarımızın mədəni səviyyələrinin cəmiyyətə ictimai həyata necə təsir göstərməsini özündə əks etdirən əsərlərindən biri onun 1910-cu ildə qələmə aldığı "Analıq" əsəridir. Müəllifi burada maraqlandıran ana və analıqla bərabər, onların, yəni qadınların mədəni səviyyələrinin ana və analığın ictimai-mədəni mövqeyinə necə təsir göstərməsi məsələsidir.

M.M.Axundovun pyeslərində XX əsrin əvvəlində cəmiyyətdə baş verən yeniliklə köhnəliyin mübarizəsində bir qayda olaraq, ziyalılar, yenilik təmsiliçiləri, onların əxlaq və düşüncə mövqeləri qələbə çalır.

**"Dramaturqun pyeslərində ailə məişət mövzusu"** adlanan ikinci paraqrafda göstərilir ki, Mirzə Məhəmməd Axundovun ayrı-ayrı yaradıcılıq sahələrindəki fəaliyyətində nəzərə çarpan bir sıra yaradıcılıq məziyyətlərini onun dram yaradıcılığında da izləmək, bütün dərinliyi və sistemliliyi ilə müşahidə etmək mümkündür.

Əsrin əvvələrində Azərbaycanda, xüsusən Bakıda kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar yeni zümrə – xırda burjua sinfinin nümayəndələri, onların məişət, ictimai-siyasi xarakteri, tutduğu xalqa zidd mövqe də maarifçi demokratların diqqət mərkəzində idi. Bu sahədə görkəmli dramaturqlardan Nəcəf bəy Vəzirov, Əbdürrəhimbəy Haqverdiyev, Nəriman Nərimanov, Süleyman Sani Axundov və başqaları qələm işlədərək maraqlı əsərlər yazmışlar. Onların əsərlərinin hər birində bu silkin nümayəndələrinin xalqa, ictimai həyata zidd olan başqa - başqa cəhətləri ifşa olunmuşdur.

Bu mövzu bir maarifçi-demokrat kimi, Mirzə Məhəmməd Axundovu da cəlb etmiş və o bu sahədə "Sonrakı peşmançılıq səmərə verməz" (1910) və "Yaşına - yaşına çıxdı ocaq başına" (1916) adlı əsərlərini qələmə almışdır.[20]

Maarifçi demokratlar vətən övladının vətənpərvərlik ruhunda

---

[19] Axundov, M. M. Məhəbbətsizlik nəticəsi, yaxud ata və ananın təqsiri /Axundov. M.M. - Bakı:Azərnəşr, - 1928.-98 s.
Axundov, M.M. Məktub // Tərəqqi, -1909, 23 yanvar.

[20] Bayramoğlu, A.M. M.Axundovun pyesləri. // Ədəbiyyat Məcmuəsi, - Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, -2009. C.22, - s.91-103.

tərbiyə edilməsinə də xüsusi qayğı və diqqət yetirirdilər. Mirzə Məhəmməd Axundov da öz dramaturji fəaliyyətində həmin mövzuya – vətəndaşların vətənpərvərlik, fədakarlıq və mənəvi birlik ruhunda tərbiyə olunması mövzusuna müraciət etmişdir. O dövrdə digər maarifçi demokratlar kimi, M.M.Axundovu da Ana dilinin saflığının qorunması məsələsi narahat etmişdir. Araşdırmalardan məlum olur ki, o həmin məsələyə dair 1908-ci ildə "Türk oğulları, ya ki dil yağıları" adlı bir pərdəli komediya yazmışdır. [21]

"Türk oğulları, ya ki dil yağıları" əsərini geniş təhli edən A.Bayramoğlunun yazdığı kimi, bu əsərdə M.M.Axundov öz Ana dilinə yağı kəsilən oxumuş cavanlarımızın, türk oğullarının səhnəyə gətirilməsi işini 1908-ci ildə gördü. C.Məmmədquluzadə 1919 – cu ildə "Anamın kitabı" əsərində həmin vəzifəni daha geniş planda və milli, ictimai - əxlaqi məzmunda, fəlsəfi tutumda həyata keçirdi.[22] Bütün bunlar Mirzə Məhəmmədin fəal yazıçı olduğunu göstərən amillərdir. Bu mövzuda o, "Səd Vəqas, yaxud fəthi-Qüdsiyə"[23] (1910) adlı tarixi bir dram da yazmışdır. Əsər 1911-ci ildə ayrıca kitabca şəklində Bakıda nəşr olunmuşdur.

Mirzə Məhəmməd Axundov dram yaradıcılığında ancaq orjinal əsərlər yazmaqla kifayətlənməmiş, eyni zamanda bəzi klassik sənətkarların əsərlərini dilimizə tərcümə etmişdir. Bu müəlliflər sırasına türk şair və dramaturqu Namiq Kamal, ingilis dramaturqu V.Şekspir və b. daxildir. Mənbələr həmin əsərlərin Gəncədə və Bakıda tamaşaya qoyulması və əksəriyyətinin kitabça şəklində çapdan çıxması haqda məlumat verirlər.

M.M.Axundovun tərcümə etdiyi dram əsərlərinin mövzusu və ideya-estetik xüsusiyyətləri onun orijinal səhnə əsərləri ilə yaxından səsləşməkdədir. Yəni, o öz əsərlərində maarifçilik mövqeyindən çıxış etdiyi, xalqın mənəvi-əxlaqi saflığı, qadın hüququ, islami

---

[21] Bayramoğlu, A..M. M.Axundovun naməlum bir əsəri // Ədəbiyyat, – 2008, 29 fevral.

[22] Bayramoğlu A. M.M.Axundov irsinin tədqiqi və nəşri tarixinə dair. // A.Bayramoğlu. – AMEA-nın Xəbərləri (Humanitar elmlər seriyası). – Bakı: kar – "Elm". – 2008. - №1, – s.25.

[23] Axundov Mirzə Məhəmməd. Dram əsərləri. / M.M.Axundov. – Transliterasiya, tərtib edən və ön sözün müəllifi Rauf Sadıxov. Redaktoru: Aybəniz Kəngərli. Bakı: – Mütərcim, 2003. – s. 77-132.

ideyaların təntənəsinə çalışdığı və qəhrəmanlıq, vətənpərvərlik duyğularını tərənnüm etdiyi kimi həmin ideyalar, mövzu və problemlərlə yaxından səsləşən səhnə əsərlərini də ana dilimizə tərcümə etmişdir. Bütövlükdə isə M.M. Axundovun dramaturji fəaliyyəti mövzu və problematika baxımından onun ümumi ədəbi fəaliyyətindən ayrılmayır. Fikrimizcə, bu bütövlük M.M.Axundovun yazıçı-vətəndaş keyfiyyətindən irəli gəlir.

**"Mirzə Məhəmməd Axundovun publisistik yaradıcılığı"** adlı üçüncü fəsil "M.M.Axundovun publisistikası" və "Mənəvi-aşınmaların tənqidi və vətənpərvərliyin vəsfi" paraqraflarinda ifadə olunur.

Burada göstərilir ki, Mirzə Məhəmməd Axundov dövründə həm də bir şair kimi tanınır. Onun şeirləri məzmun və formasına, həm də ideya-bədii xüsusiyyətlərinə görə rəngarəngdir. Yəni burada ölkədə baş verən yeniliklər – milli mətbuatın inkişafı, yeni tipli məktəblərin açılması, gənc nəslin elm və təhsilə meyli, eyni zamanda cəmiyyətdə hələ də qalan laqeydlik, ətalət, milli mənəvi dəyərlərimizə və tarixi şəxsiyyətlərimizə bəslənən etinasızlıq, köhnə fikirli qüvvələrin hələ də qüvvətli olub yeniliyə qarşı maneə törətmələri, aclıq problemi və s. məsələlər Mirzə Məhəmməd şeirlərində öz əksini tapmışdır. Bu şeirlər həm klassik üslubda, həm də yeni poetik formada – "Molla Nəsrəddin" jurnalının poeziya məktəbinə uyğun forma və məzmundadır. Şairin müxəmməs formasında olan "Qəzet" şeiri onun sağlığında çap edilməmişdir. Onun əlyazmasını Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Şəlalə Ana Hümmətli AMEA Əlyazmalar İnstitutunun arxivində mühafizə edilən əlyazma materiallarını araşdırarkən əldə etmiş və onu institutun elmi əməkdaşı, şərqşünas Hacı Mustafa Mail oğlunun ərəb əlifbasından çevirməsi ilə 21 iyul 2005-ci il tarixli "Azadlıq" qəzetində dərc etdirmişdir. Şeirdə qəzetin əhəmiyyəti elmə bərabər tutulur, o, xalqı hər işdən agah edən, düz yola yönəldən, onu işıqlı gələcəyə aparan bir nemət kimi təqdim və tərif edir.Şeir əvvəlcə belə bir təqdimatla başlayır:

*Elmə nisbət, tərbiyətbəxşeyi-aləmdir qəzet.*

*Məclis ara olmağiylə müsəlləmdir qəzet.*
*Sübhi misli-miraət- Skəndər- sağəri-cəmdir qəzet*
*Aləmin könlündəki əsrarə mərhəmdir qəzet*
*Xatiri şad etməyə hər dəm müsəmməmdir qəzet.* [24]

Göründüyü kimi, müəllif qəzetin məziyyətləri sırasına onun cəmiyyətdə "tərbiyəbəxşi- aləm", yəni tərbiyəvi təsirə malik olması, "aləmin könlündəki əsrarə mərhəm", yəni hər şeydən, hər bir sirdən, insanların ürəyindən xəbər verməsini olması, ayrı- ayrı adamların ruhunu oxşayıb, xatirini xoş etməsi, daha doğrusu, bu cür işlərə daima hazır olması və s. keyfiyyətləri aid edirdi.

Mirzə Məhəmməd qəzetə, ümumən mətbuata yüksək qiymət vermişdir. Onun fikrincə qəzet haqqın, ədalətin, xoşbəxtliyin, insanlığın, elm və tərəqqinin carçısı, cəhalətin, kin və ədavətin, geriliyin, zülm və haqsızlığın düşmənidir. Şair inanırdı ki, milli mətbuatın inkişafı cəmiyyətin bütün zümrələrinin şüurunda bir tərpənişə, inkişafa səbəb olacaq.

Müşahidə etdiyi bu cür əlamətləri "oyandı" rədifli "Nəzm" ...Hər həftə yazırsan ki, müsəlmanlar oyanmaz, başlıqlı satirasında belə təsvir etmişdir:

*Hürriyyəti qanmaz.*
*Həqdir sözün,amma bu müsəlmanlar inanmaz,*
*Heç kəs bunu danmaz.*
*İndi görəsən arifü-danalar oyandı,*
*Binalar oyandı.* [25]

Göründüyü kimi, M.M.Axundov Molla Nəsrəddinə müraciətlə bildirir ki, hər gün sən müsəlmanın bu ətalət və qəflət yuxusundan oyana bilmədiyindən yazırsan. Bunlar doğrudur. Ancaq bu sözlərə müsəlmanlar heç cürə inana bilməz. Çünki, onlar çoxdan oyanmışlar. Sonra müəllif islam aləmindəki oyanmanın, zirəkliyin nədən ibarət olduğu barədə bir-bir məlumat verir.

Mirzə Məhəmməd Axundovun ictimai-mədəni fəaliyyəti kimi

---

[24] Axundov, M.M. Qəzet (şeir) // Azadlıq. –2005, 21 iyul.
[25] Molla Nəsrəddin // - Bakı: Yazıçı, - 1988. C.1,- s.302-303.

ədəbi-elmi yaradıcılıq sahəsi də çoxtərəflidir. O, publisist, şair, alim, tərcüməçi, folklor toplayıcısı kimi də tanınmaqdadır. Mirzə Məhəmmədin publisistik yazıları dövrün "İrşad", "Molla Nəsrəddin", "Tərəqqi" və digər mətbuat orqanlarında çap olunmuşdur. Bu yazılar həm mövzu və problematikasına görə, həm də forma və janr baxımından zəngindir; müxbir yazıları, xəbərlər, məqalə və felyetonlardan ibarət olan həmin materiallarda müxtəlif mədəni-maarif tədbirlərindən, sosial-mənəvi problemlərdən, ictimai-siyasi hadisə və proseslərdən, o cümlədən ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri soyqırım hadisələrindən söhbət açılır.

III fəslin **"Mənəvi aşınmaların tənqidi və vətənpərvərliyin vəsfi"** adlı ikinci paraqrafında qeyd edilir ki, Mirzə Məhəmməd Axundov ictimai-siyasi fəallığı ilə yanaşı, maarif və mədəniyyət sahəsindəki fəaliyyəti ilə də diqqəti cəlb edir. Əvvəlki fəsildə onun bir pedaqoq kimi çoxlarından fərqləndiyini gördük. Müşahidələr göstərir ki, Mirzə Məhəmməd öz soydaşlarının maarifə və elmi biliklərə yiyələnmələri üçün mövcud sosial-mənəvi və ictimai-əxlaqi problemlərin aradan qaldırılması istiqamətində də çalışmış, bu məqsədlə mətbuatda bir-birindən maraqlı və məzmunlu publisistik məqalələrlə çıxış etmişdir. Hər şeydən əvvəl o, təlimdə yeni tədris üsulunun qızğın tərəfdarı və müdafiəçisi idi. Qələmə aldığı dərsliklərini də bu üsul ilə, yəni üsuli-cədidin tələblərinə uyğun yazmışdı.Mirzə Məhəmməd Axundov köhnə təlim üsuluna həm də ona görə qarşı çıxırdı ki, həmin üsulla qurulan "tədris ocaqları" da dərs keçmək, uşaqlara nəyisə başa salmaq əvəzinə sərt cəzalar tətbiq edilirdi. Bu da gənc nəsli sağlam vətəndaş kimi yetişdirməyir, onların qorxaq və küt bir varlığa çevrilməsinə səbəb olurdu.

Tədrisin səmərəliliyi, qarşıya qoyulan məqsədə çatmağın yollarını, yuxarıda, əvvəlki fəsildə gördüyümüz kimi, həmin dərsliklərə yazdığı metodiki tövsiyə xarakterli "Bir neçə söz" lərdə də izah etmişdi.

Mirzə Məhəmməd ataları öz övladlarına düzgün yol seçə bilməməkdə günahlandırır. O, keçmiş anlayışları tənqid edir; bildirir ki, övladımızı "müəllim" dediyimiz adama tapşıranda "əti sənin, sümüyü mənim"- deyərək məqsədinizin sanki övladınıza fiziki işgəncə verməkdən ibarət olduğunu bildirirsiniz. Ona görə də

“müəllim” deyilən o adamlar uşaqları nəm, rütubət, yarıqaranlıq hücrələrdə səhərdən axşama kimi saxlayır, onlara dərs əvəzinə cəza verir. Siz valideynlər isə uşaqları məktəbdə çox saxlayan mollaları əsl müəllim hesab edirsiniz. Daha fikirləşmək belə istəmirsiniz, heç maraqlanmırsınız ki,məktəbdə onlara nə öyrədirlər. Bu töhmət və qınaqla o sözünə belə davam edirdi: “Siz müəllim dediklərinizdən elm və bilik axtarmıyıbsınız. Həmişə onlardan istəniləcək iki məqsudiniz olubdur: biri övladınızı döyüb o hala salmaq və birisi də onları sabahdan axşama kimi rütubətli hücrə və mənzillərdə dizi üstə saxlamaq.

Mirzə Məhəmməd Axundov burada o dövrkü təhsil obyektlərindəki şəraitin və dərs üsulunun yarıtmazlığını tənqid edirdi. Bildirirdi ki, hücrələrin darısqal və rütubətli olması ilə yanaşı, azyaşlı uşaqların yerdə oturmaq əvəzinə saatlarla dizi üstə dayanmaları onların sağlamlıqlarına mənfi təsir göstərir. Nəticədə həmin uşaqlar o cür şəraitsiz məktəblərdə bilik əvəzinə cürbəcür xəstəlik qazanırlar. Belə olan halda uşaqların ömürləri də, onların elm və bilik qazanmaları üçün valideynlərin xərclədikləri pullar da puç olub getmiş olur. Həmin həqiqətləri müəllif valideynlərə bütün çılpaqlığı ilə açıb göstərirdi.

Bu məqsədlə yazırdı:

*“Sözlərim sizə acıq gəlməsin! Siz atalar öz övladınıza düşmənsiniz. Onların səlamətligini və çox yaşamalarını istəmirsiniz! Verdiyiniz pulları övladınızın tərbiyəsi üçün yox, bəlkə onların fövt olmaları üçün verirsiniz. Görün müəllimnümalar sizləri aldadırlar, pullarınızı alırlar.*

*Baxın, diqqət edin. Gül parçası, bədəni səlamət ətfalınızı nəzərə alın. Həman məktəbdə bir neçə ay qaldıqdan sonra nə hala düşür.Səlamət verdiyiniz balalarınızı naxoş alırsınız. Qərəzi gül yaprağı məsəlli balalarınızın neçə aydan sonra rəngi zəfərana dönür, bədəni incələşir, yürəgi üzülür, hər şeydən qorxur və hələ cavan ikən gözünün nuru gedir. Baxın, diqqət edin,bunların hamısı nədəndir?”*

Bütün bunlar göstərir ki, M.M.Axundov özünün publisistik məqalə və müxbir xəbərlərində dövrün mənəvi, mədəni, ictimai-əxlaqi və ideya-siyasi məsələlərinə fəal münasibət bildirmişdir.

Həmin yazılarda qaldırılan məsələlərin şərhində müəllifin fikir aydınlığı, milli təəssübkeşlik hissi qabarıq görünməkdədir.

Bu paraqrafda eyni zamanda M.M.Axundovun felyetonları, topladığı bayatı və manilərlə bağlı araşdırmaları da yer almışdır. Qeyd edək ki, onun "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi bəzi felyetonları "Məclis yaraşığı" kitabındakı ayrı-ayrı əhvalatlarla yazı tərzinə, tənqid üsuluna, yumoristik ovqatına görə səsləşir. Qeyd olunan əsərdə yer alan "Axmaq", "Davaya gedən", "Dəllək", "Zərif", "Kağıza baxan", "Minarə", "Yaş", "İnanma" və s. fikrimizi təsdiq edir.

Mirzə Məhəmməd Axundzadənin bu kitabını "Məclis yaraşığı" adlandırması məsələsinə gəldikdə isə qeyd etməliyik ki, müəllif, çox güman ki, burada toplanmış lətifələrin bir çoxunu ilk dəfə el şənliklərində, dost yığıncaqlarında, təziyələrdə, bir sözlə, məclislərdə el ağsaqqallarının, hazırcavab insanların dilindən eşitmiş, hafizəsinə həkk etmiş, sonradan onları bədii şəkildə qələmə alaraq, cilalayaraq duzlu yumoru, incə gülüşü sevən həmvətənlərinə, oxucularına ərməğan etmək istəmiş, məhz buna görə də toplu üçün bu adı seçmişdir.

M.M.Axundzadə şifahi xalq ədəbiyyatının poetik janrlı nümunələrinə də böyük maraq göstərmiş, onların da toplanaraq yazıya alınmasında xeyli əmək sərf etmişdir. Həmin nümunələrin bir qismi ədibin vəfatından sonra 1925-ci ildə yaradılmış "Azərbaycan Ədəbiyyatı Cəmiyyəti" nin xətti ilə 1926-cı ildə Bakıda kitab şəklində "Bayatılar və manilər" adı altında çap etdirilmişdir.

**Tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir:**

- Mirzə Məhəmməd Axundov maarifçi–realist ədib, vətənpərvər ictimai xadim kimi dövrünün yetirməsidir. O, XIX əsrin ortalarından formalaşaraq inkişaf etməyə başlayan sosial-mədəni hərəkatın, demək olar ki, bütün müsbət cəhətlərini mənimsəmiş və getdikcə həmin hərəkatın fəallarından birinə çevrilmişdir.
- Cədidizm mədəni-maarifçilik hərəkatının başlıca iş metodu olan yeni üsullu (üsuli-cədid) təlim sisteminin formalaşdırılmasında həmin təlim-tərbiyə üsulunun tədris müəssisələrində tətbiqinə nail

olmaq üçün onlara uyğun proqram və dərsliklərin hazırlanmasında fəal iştirak etmiş, bu məqsədlə yeni təlim üsuluna və qabaqcıl tədris üsuluna əsaslanan dərsliklər yazıb çap etdirmişdir.

- M.M.Axundov 1906 və 1907-ci illərdə Bakıda keçirilən Azərbaycan müəllimlərinin I və II qurultaylarının keçirilməsi üçün həm təşkilati işlərdə, həm də həmin qurultayların qəbul etdiyi qərarların təlimdə tətbiqində fəal iştirak etmişdir.
- M.M.Axundov fəal ictimai xadim, vətənpərvər ziyalı kimi dövrün ən mühüm ictimai-siyasi hadisələri barədə dərin məzmunlu məqalələrlə çıxış etmişdir. Dövrün belə məsələlərindən biri də ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri fitnəkar əməllər, həyata keçirdikləri soyqırım tədbirləri idi.
- M.M.Axundov erməni daşnaq ideoloqlarına qarşı onların qanlı əməllərinin qarşısının alınması yolunda həm publisistik fəaliyyəti, həm də "Difai" təşkilatının fəal üzvlərindən biri kimi qızğın siyasi fəaliyyət göstərmişdir. Bu fakt onu göz önündə həm də siyasi xadim kimi canlandırır.
- M.M.Axundov maarifçilik hərəkatının təbiətinə və tələblərinə uyğun olaraq, cəmiyyətdə qadının mövqeyinin yüksəldilməsi, onun mədəni-mənəvi tərbiyəsi, ailə saflığı, ana dilinin təmizliyi, gənc nəslin qəhrəmanlıq, vətənpərvərlik və islami əxlaq ruhunda tərbiyə edilməsi istiqamətində də çalışmışdır. Onun "Analıq", "Hər nə əkərsən, onu biçərsən", "Məhəbbətsizlik nəticəsi, yaxud ata və ananın təqsiri", "Dil yağıları, yaxud türk oğulları", "Səd Vəqqas, yaxud fəthi-Qüdsiyyə" və s. səhnə əsərləri, "Molla Nəsrəddin" jurnalı səhifələrində dərc etdirdiyi bir-birindən maraqlı və məzmunlu şeir və felyetonları bu cəhətdən böyük əhəmiyyətə malikdir.
- M.M.Axundovun "Məclis yaraşığı" və şərikli ərsəyə gətirdiyi "Bayatılar, manilər" kitabları onu dərin folklor bilicisi və toplayıcısı kimi də xarakterizə etməyə imkan verir.
- Məqalə, şeir və digər əsərlərində xurafat, cəhalət əleyhinə çıxmış, mətbuatın ictimai-əxlaqi roluna yüksək qiymət vermişdir.
- Bütövlükdə Mirzə Məhəmməd Axundov XIX əsrin axırları, XX əsrin əvvəllərində Gəncə quberniyasının, ümumən Azərbaycanın ictimai-ədəbi və mədəni həyatında mühüm xidmətləri olan

ədəbiyyat, maarif və mədəniyyət xadimi kimi xüsusi yer tutur.

Dissertasiya işində Mirzə Məhəmməd Axundov yaradıcılığına həsr olunan məqalələr, müxtəlif münasibətlərlə qələmə alınan tədqiqat xarakterli yazılar, ayrı-ayrı araşdırmalar elmi-nəzəri mübadiləyə cəlb edilmiş, onlara müasir ədəbiyyatşünaslıq elminin nailiyyətləri səviyyəsindən dəyər və qiymət verilmişdir.

**Dissertasiya işinin mövzusuna dair müəllifin dərc olunmuş elmi əsərlərinin siyahısı:**


1. Mirzə Məhəmməd Axundov və Nizami Gəncəvi // AMEA. Nizami adına Ədəbiyyat İnstitutu. Çağımızdan görünən orta əsrlər. AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi professor R.Azadəyə həsr olunmuş II beynəlxalq elmi konfransın materialları, - 15-16 dekabr, - 2014, - s.569-572.
2. Mirzə Məhəmməd Axundov ictimai xadim kimi // GDU. Gənc alimlərin I beynəlxalq elmi konfrans materialları. II hissə, - Gəncə: 17-18 oktyabr, - 2016,- s. 261-263.
3. Mirzə Məhəmməd Axundovun ictimai pedaqoji fəaliyyəti // ARTN. Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, -Bakı, - 2016, - s. 36-39.
4. Mirzə Məhəmməd Axundovun dövrü, ailə mühiti və ilk addımları // - Baki: Filologiya məsələləri, - 2016. № 4, s. 345-350.
5. Mirzə Məhəmməd Axundovun folklor toplamaları // - Bakı: BDU. Dil və Ədəbiyyat Beynəlxalq elmi nəzəri jurnal, – 2016, - s. 258-260.
6. Mirzə Məhəmməd Axundzadə "Difai" firqəsinin üzvü kimi // - Gəncə: Elmi Xəbərlər. Fundamental, Humanitar və təbiət elmləri seriyası, - 2016, № 1, s. 86-89.
7. Mirzə Məhəmməd Axundovun şeir yaradıcılığı/ - GDU. Elmi Xəbərlər. Fundamental, Humanitar və təbiət elmləri seriyası. Gəncə, 2017. № 2, s. 89-92.
8. Движение джадидизма в Азербайджане и Мирза Мухаммед Ахундов // Киивський национальний университет имени Тараса Шевченка. Видавничий дим Дмитра Бураго. Наукове видання. «Мова I культура», Киив,-2017. В. 19, Т. IV (184), - с. 210 – 217.
9. Mirzə Məhəmməd Axundovun "Səd Vəqas yaxud fəthi-Qüdsiyyə" tarixi dramı // "Müasir dünyada inteqrasiya və elmin aktual problemləri" mövzusunda keçirilən Respublika Elmi Konfransının materialları, - 22-23 dekabr,- 2017,- s.298-299.

10. Mirzə Məhəmməd Axundovun elmi fəaliyyəti // Baku 2nd international Conference of science, - Bakı, - 1st of april, - 2018,- s. 238.
11. Representative of the new training movement Mirza Mahammad Akhundov // IKSAD International Congress on social sciences-VI. Proceedings Book, - Hungary: Szechenyi Istvan University,- March 26-28 2021, -p.479-480.

Dissertasiyanın müdafiəsi "11" *mart 2022-ci il* tarixində saat $11^{30}$ Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi nəzdində fəaliyyət göstərən ED 1.31 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, İstiqlaliyyət küçəsi 53. AZ 1001.
AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "10" fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.02.2022

Kağızın formatı: A5

Həcm: 36 185

Tiraj: 100